# Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər




Dünyada iqtisadi, hərbi və siyasi böhranın yaşandığı bir dövrdə Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Belə ki, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda dövlətimizin başçısının da vurğuladığı kimi, bu il ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub. Onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir. Bunun çox gözəl göstərici olduğunu vurğulayan dövlətimizin başçısı ölkə iqtisadiyyatının 3,7 faiz artdığını, qeyri-neft iqtisadiyyatının 6 faizdən çox yüksəldiyini və qeyri-neft sektorunun ümumi daxili məhsulun 70 faizini təşkil etdiyini, həmçinin sənaye istehsalının 2,1 faiz, qeyri-neft sənayesinin 10 faizdən çox artdığını, kənd təsərrüfatında isə 6,7 faiz artım olduğunu əlavə edib.

İqtisadi qüdrəti artan dövlət dünya siyasətində öz mövqelərini daha yaxşı qoruyur. Məhz Azərbaycanın iqtisadiyyatının dayanıqlı inkişafı ölkəmizin mövqelərini daha da gücləndirir, inkişafına zəmin yaradır. Həmçinin ölkəmizin iqtisadi inkişafa nail olması ilə respublikamızın hər yerində abadlıq-quruculuq işləri aparılır, Azərbaycanın gözəlləşməsinə, yeni-yeni sahibkarlıq subyektlərinin yaranmasına və nəticədə əhalinin rifahının yüksəlməsinə zəmin yaradır. Qeyd etmək yerinə düşər ki, bu gün ölkəmizin ən ucqar yaşayış məntəqələri də informasiya texnologiyalarının imkanlarından istifadə edir, hər evdə telefon və internetin imkanlarından istifadə edilir, yaşayış məntəqələri qazlaşdırılır, yollar abadlaşdırılır.

Bu gün ölkəmizin inkişafından yararlanan yaşayış məntəqələrindən biri də paytaxt Bakının Suraxanı rayonudur. Respublikamızın digər rayon və şəhərləri kimi, Suraxanı rayonu da sürətlə inkişaf edir, abadlaşdırılır, sahibkarlıq subyektləri üçün cazibədar məkana çevrilir.

Qeyd edək ki, 95 yaşlı rayon 1920-ci ilin may ayında yaradılıb. 122 kvadrat kilometr ərazisi olan Suraxanının 27366 nəfər təqaüdçü, 437 nəfər həkim və 4191 nəfər müəllim olmaqla 210,5 min nəfər əhalisi var. Həmçinin rayon ərazisində 8386 nəfər qaçqın və 21368 nəfər məcburi köçkün sığınacaq tapıb. Qədim yaşayış məskəni olan Suraxanı rayonunda 1880-ci ildən dəmir yolu xətti çəkilib və hal-hazırda da fəaliyyət göstərir. Rayonda 10 ATS , 53258 telefon abonenti, 14 poçt idarəsi, 35 məktəb, 35 məktəbəqədər tərbiyə müəssisəsi, 1 uşaq evi, 1 internat məktəbi, 25 istirahət parkı, 8 mədəniyyət sarayları və evləri, 7 kitabxana, 12 məscid, 37 QHT və ictimai birlik, 4 bank filialı, 1 sığorta şirkəti, 17 səhiyyə müəssisəsi fəaliyyət göstərir. Rayon ərazisində 58 iri sənaye müəssisəsi, o cümlədən "Bahar Enerji", SOCAR-ın Kompleks Qazma İşləri Trestinin Qazmaservis və Logistika İdarəsi, "Azneftkimyamaş" ASC-nin "Suraxanı maşınqayırma zavodu" TASC, "ATEF Qrup" "ATEF Transformator" MMC, "Suraxanıoyl" Əməliyyat Şirkəti, SOCAR-ın "Azneft" İB-nin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsi, "Bakı Neft Mədən Avadanlıqları" ASC, Hövsan Aerasiya Stansiyası, "Bakı Taxıl Terminalı" MMC, "Bakı Balıq Dəniz Limanı" ASC, "Bakı Tikinti Materialları" ASC, "Abşeron Operating Company Limited" əməliyyat şirkətinin filialı, "Bakı Neft Cihazları" ASC, "Gön Xırdavat" ASC, Suraxanı Dəmiryolu Stansiyası, "Bakı Toxuculuq" ASC, "Neftqaztikinti" Trestinin xüsusi texnika idarəsi, "Transqeyt" MMC kimi sahibkarlıq subyektləri fəaliyyət göstərir.

Suraxanı rayonu ölkəmizin dayanıqlı iqtisadi inkişafında da rol oynayır. Belə ki, Suraxanı Rayon İcra Hakimiyyətində 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov vurğulayıb ki, hesabat dövründə rayonda sənaye məhsulunun istehsalı 198,1 milyon manat, tikinti-quraşdırma işləri 34,2 milyon manat, nəqliyyat xidmətləri 3,8 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 30,2 milyon manat, kənd təsərrüfatı 2,2 milyon manat, pərakəndə ticarət dövriyyəsi 238,8 milyon manat, orta aylıq əmək haqqı 546,4 manat təşkil edib, əhaliyə 184,3 milyon manat məbləğində pullu xidmətlər göstərilib, daimi olmaqla 2355 yeni iş yeri açılıb.

İ.Abbasovun rəhbərlik etdiyi rayonda abadlıq-quruculuq işlərinə, idmanın inkişafına, ekoloji təmizliyə xüsusi diqqət yetirilir, rayon əhalisinin sosial müdafiəsinin gücləndirilməsi məsələləri daim nəzarətdə saxlanılıb. Belə ki, "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda Suraxanı rayonu üzrə 54 tədbir nəzərdə tutulub, onların 4-ü icra olunub, 20-nin icrasına başlanılıb, başa çatdırılan və başlanılan tədbirlər proqramın 44,5 faizini təşkil edib.

Ümumiyyətlə, bu dövr ərzində Qaraçuxur qəsəbəsində 146 saylı orta məktəb üçün 25 əlavə sinif otağından ibarət tədris korpusu, idman və akt zalları tikilərək istifadəyə verilib, Əmircan qəsəbəsində 5 saylı və Yeni Günəşli yaşayış sahəsində 262 saylı uşaq bağçaları əsaslı təmir olunub, Qaraçuxur və Bülbülə qəsəbələrində idman zallarının, Yeni Günəşli "V" yaşayış sahəsində idman meydançasının, Əmircan qəsəbəsində RİH tərəfindən 100 yerlik uşaq bağçasının, Yeni Günəşli "D" yaşayış sahəsində şahmat məktəbinin və yanğından mühafizə bölməsinin binasının tikintisi davam etdirilib.

Rayonun əməliyyat şirkətləri tərəfindən lay suları və neftlə çirklənmiş 8,17 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunub, ümumi sahəsi 5 hektar olan müxtəlif ölçülü 24 ədəd gölməçə qurudulub, 30 ədəd quyunun işçi meydançası və quyuətrafı sahələri neft tullantılarından təmizlənib, neft kollektorları təmir olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçən ilin noyabr ayında başlayan birinci "Ümumrespublika yaşıllaşdırma marafonu" çərçivəsində cari ildə də ağacəkmə kampaniyası davam etdirilib, marafon çərçivəsində rayonun idarə və müəssisələrinin iştirakı ilə 11 ümumrayon iməciliyi keçirilərək 7,4 mindən artıq ağac əkilib. Vurğulamaq yerinə düşər ki, Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində cari ilin 9 ayı ərzində 7496 nəfərə 4,57 milyon manatdan artıq sosial müavinət ödənilib, 2173 ailəyə 3,04 milyon manatdan artıq ünvanlı sosial yardım göstərilib, 218 nəfər tənha və əlil vətəndaşa evində sosial xidmət göstərilib, 58 nəfər imtiyazlı vətəndaş reabilitasiya mərkəzində və sanatoriyalarda istirahət edib. Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi tərəfindən 27748 təqaüdçüyə xidmət göstərilib,bir nəfərə düşən orta aylıq təqaüdün məbləği rayon üzrə 194,5 manat təşkil edib. Rayon Məşğulluq Mərkəzinə işlə əlaqədar müraciət etmiş 992 nəfərdən 476 nəfəri işlə təmin olunub, 71 nəfərə işsizlik müavinəti verilib, 44 nəfər peşə hazırlıq kurslarına cəlb olunub, rayonun ümumtəhsil məktəblərində 906 nəfər peşəyönümünə cəlb edilib. Cari ilin may ayının 1-dək bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığı Suraxanı rayonunda da müvəffəqiyyətlə icra edilib, rayon əhalisinin 67,4 %-i və 124 kollektiv tibbi müayinədən keçib, aşkarlanmış xəstəliklər nəticəsində 6751 nəfər vətəndaş ambulator müalicəyə və 570 nəfər stasionar müalicəyə qəbul olunub, 704 nəfərin sağlamlığı bərpa edilib.

Həmçinin dövlət başçısının idman siyasətini uğurla icra edən RİH rəhbərinin bu istiqamətdə göstərdiyi fəaliyyət nəticəsində ölkəmizdə keçirilən birinci Avropa Olimpiya Oyunlarında Suraxanı rayonunun idmançıları da uğurla iştirak ediblər. Belə ki, yarış ərzində uğurlu çıxış edən rayon idmançıları - karate idman növü üzrə Ayxan Mamayev qızıl medal, sambo üzrə Vasif Səfərbəyov gümüş medal, qılıncoynatma idman növü üzrə Sevil və Sevinc Bunyatova bacıları 1 gümüş və 1 bürünc medal qazanıblar.

Xatırlatmaq yerinə düşər ki, rayonun inkişafına və sakinlərin rifahının yaxşılaşdırılmasına çalışan İlqar Abbasov tərəfindən 759 nəfər vətəndaşla görüşülüb, ümumilikdə 1715 nəfər sakinin iştirakı ilə keçirilmiş 27 səyyar görüşdə qaldırılan məsələlərə və təkliflərə əsasən aidiyyəti idarə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib, icrasına daim nəzarət edilib.

Həmçinin gənclərin pis vərdişlərə qurşanmaması üçün səy göstərən İ.Abbasov, onların fəsadları barədə maarifləndirilməsi üçün narkomaniyaya qarşı mübarizə həftəliyinin təşkil edilməsinə göstəriş verib. Buna misal olaraq vurğulayaq ki, noyabrın 25-də narkomaniyaya qarşı mübarizə həftəsi çərçivəsində Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin Suraxanı rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin və Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Səttar Bəhlulzadə adına Mədəniyyət sarayında "Gələcəyimizi qoruyaq" adlı, həmin gün rayonun Hövsan qəsəbəsində yerləşən 270 nömrəli tam orta məktəbdə ''QİÇS və narkomaniyaya qarşı mübarizəyə sən də qoşul - sağlam həyat tərzini seç!" adlı, eləcə də dekabrın 1-də Suraxanı rayonu gənclərinin toplaşdığı "Gənclər evi"ndə Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr edilmiş "Bizim gücümüz birliyimizdədir" adlı maarifləndirici tədbirlər keçirilib.

Bildirmək yerinə düşər ki, yeniyetmə və gənclərlə yanaşı, ahılların, əlillərin, müəllimlərin, səhiyyə işçilərinin qayğısına qalan rayon rəhbərliyi bu istiqamətdə də fəaliyyət göstərərək onlarla görüşür, ehtiyacları ilə maraqlanır.

**Məhərrəm Ağalaroğlu,**
***"İki sahil"***

***Yazı Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.***